www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

Dil - mədəniyyətin daşıyıcısı

Zəminə ZİYAYEVA
Filologiya üzrə fəlsəfə doktoru

Kulturoloqlar mədəniyyətin əmələ gəlməsində sosial varlıq olan dilin müstəsna rolunu vurğulayırlar, eyni zamanda onu mədəniyyətin tərkib hissələrindən biri olaraq qəbul edirlər. Dilin xüsusiyyətlərindən bəhs edərkən müraciət edilən əsas mövzulardan biri məhz dil-mədəniyyət/milli mədəniyyət əlaqəsidir. Dil mədəniyyətin ünsürüdür, çünki millətin bu günündə mövcud olanları ən yaxşı şəkildə ifadə etmək, eyni zamanda, qazanılan sərvəti nəsillərə ötürmək üçün bir vasitədir.

Dil millətin milli kimliyidir. Məhəlli dillər zamanla ədəbi dilə çevrilib həyatiliklərini qoruyurlar, ədəbi dil olaraq istifadə edilən bəzi dillər isə müxtəlif səbəblərdən tarix səhnəsindən silinib gedir, ölü dillərə çevrilir. Eləcə də müəyyən dillər fəaliyyət dairələrini genişləndirərək istifadə edildikləri coğrafiyanın lingua francası - üst dili pilləsinə yüksələ bilir. Bütün bu proseslər dilin funksionallığı ilə əlaqəli olduğu kimi, onun sosiallığı və istifadə edildiyi arealın coğrafi mövqeyi ilə də əlaqəlidir. Qafqaza səyahət edənlərin dediyi kimi, bu coğrafiyada danışılan türkcə yüzilliklər boyu bu bölgədə yaşayan xalqların lingua francası olub. Rusların Qafqazı istila etməsi XIX əsrdən başlayaraq zaman içində rus dilinin bölgə xalqları üzərindəki təsirini artırıb, arealda bilinqvizm şəraiti yaradıb. Bununla birlikdə Qafqazda danışılan türkcə tarixən olduğu kimi, müasir dövrə qədər ortaq ünsiyyət dili kimi bölgədəki nüfuzunu qoruyub. İfadədə ifrata varmadan bu türkcənin bu ərazidə yaşayan xalqın/yerli etnosun milli kimliyinin tək göstəricisi və ən sağlam qoruyucusu olduğunu demək mümkündür.

Nüfuzlu dillər milli dillər üzərində təhlükəli təsirə malikdir. Yuxarıda rus dilinin Qafqazdakı təsiri vurğulandı. Bununla birlikdə ingilis dilinin də dünya dilləri üzərindəki təsiri gözardı edilməməlidir. Dövrümüzdə ingilis dilinin müasir səviyyəsi öz təsir dairəsini genişləndirməklə birlikdə, milli dillərin həyatiliklərinə də təhdid yaradır. Keçən günlərdə mətbuatda bir yazıya rastladım. Fransada yeni şəxsiyyət vəsiqələri təsdiqlənib və vəsiqələrdə Fransız dili ilə yanaşı, ingilis dili də istifadə edilib. Bu hal Fransız Akademiyasının (Academie Française - bu akademiya Fransada Fransız dilini qorumaq və inkişaf etdirmək üçün Kral XIII Louis tərəfindən 1635-ci ildə qurulub, günümüzdə də fəaliyyətini davam etdirməkdədir) reaksiyasına səbəb olub. Belə ki, bu yanlış ortadan qaldırılmadığı halda hökuməti məhkəməyə verəcəklərini bəyan ediblər. Qeyd edilməlidir ki, fransız dili də kifayət qədər inkişaf etmiş Avropa dillərindən biridir və hər iki dil eyni mədəniyyət dairəsinə mənsubdur.

Qafqazda əsrlər boyu mövcudiyyətini qoruyan Azərbaycan türkcəsinin XX əsrin 90-cı illərindən sonrakı mərhələsini nəzərdən keçirmək, müxtəlif dövrlərdə dövlət tərəfindən qəbul edilən rəsmi sənədlərin mahiyyəti ilə tanış olmaq dil-milli mədəniyyət əlaqəsi baxımından müəyyən nəticəyə gəlmək üçün əhəmiyyətlidir. Azərbaycanın müstəqilliyinin bərpasından sonra (18 oktyabr 1991-ci ildə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib) Azərbaycan Respublikası hökuməti tərəfindən dil haqqında müəyyən qanun və fərmanlar qəbul olunub. Bu qanunlardan ilki 22 dekabr 1992-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur. 1995-ci il Konstitusiyasından çıxarışda 21-ci maddə "Dövlət dili" ilə əlaqədardır. 30 sentyabr 2002-ci ildə üç fəsildən ibarət "Azərbaycan Respublikasında dövlət dili haqqında" yeni qanun qəbul edilib, beləcə, 1992-ci ildə qəbul edilən dil qanunu qüvvədən düşmüş hesab olunub.

2002-ci il tarixli dil qanunundan sonra daha bir əhəmiyyətli rəsmi sənəd Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın hazırlanması haqqında 23 may 2012 tarixli Sərəncamıdır. Bu sərəncamda dövlətin dil siyasəti yenidən nəzərdən keçirilib, müasir dövrə uyğunluq irəli sürülüb və dövrün tələblərinə görə dilin fəaliyyət dairəsinin genişləndirilməsini hədəfləyən "Dövlət Proqramı"nın hazırlanması başlıca tələb olaraq ortaya qoyulub. Dövlət Proqramının hazırlanması ilə yanaşı, sərancamda daha 2 əsas tələb də yer alıb: Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının və tərcümə işlərinin mərkəzləşdirilmiş qaydada aparılması üçün Tərcümə Mərkəzinin yaradılması.

Tərcümə Mərkəzinin yaradılması dövlət dilinin mərkəzləşdirilmiş qurumlarda tətbiqi məsələsinə yeni bir baxış idi və dövrün tələblərinə uyğun atılan gərəkli bir addım idi. Haşiyə çıxmaqda fayda vardır: Qədim dövr ərəb dilinin inkişafı Bağdadda qurulan tərcümə mərkəzləri ilə birbaşa əlaqəlidir. Tərcümənin dilin inkişafındakı müstəsna rolu Əli bəy Hüseynzadənin dil siyasətində də özünü göstərib. O, Avropanın ən məşhur yazıçı və şairlərinin əsərlərinin tərcümə edilərək 1900-cü illərin əvvəllərində Bakıda nəşr edilən Füyuzat jurnalında yayımlanmasına şərait yaratmış, özü də məhz bu işi görmüşdü. Beləliklə, tərcümə işi dili həm təzələyir, həm zənginləşdirir, həm də dilin fəaliyyət dairəsini genişləndirməklə dil əlaqələrinə də öz töhfəsini verir.

2013-cü il 9 aprel tarixli Sərəncamla "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın fəaliyyət proqramı təsdiqlənib. Bu, təxminən 17 səhifədən ibarət bir sənəddir. Proqramın "Tədbirlər Planı" nəzərdən keçirildiyi zaman tədbirlərin icra müddətinin bitəcəyi ən gec tarix kimi 2020-ci ilin göstərildiyi təsbit edilib. Sənədin ən mühüm hissəsindən biri 4-cü bölüm / "Gözlənilən nəticələr" bölümüdür. Burada "Azərbaycan dilinin düzgün işlənilməsində çevikliyin təmin olunması üçün müvafiq internet resurslarının yaradılması" və "Azərbaycan dilində internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması sahəsində işlərin görülməsi" kimi maddələrdə dil amilinin müasir səviyyəsinin ən aktual problemlərinin həlli məqsəd olaraq qarşıya qoyulub. Dövrün tələblərinə cavab verən, milli dəyər olan dilin qorunması və zənginləşməsi üçün müəyyən öhdəliklərin həlli planlaşdırılıb, ümdə öhdəlik olan internet resurslarının yaradılmasındakı çevikliyin təmini dövlət sənədi ilə rəsmiləşdirilib.

Müstəqillik dövründə dövlətin milli mədəniyyətin təminatçısı olan dilə dair apardığı siyasət çoxşaxəlidir. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi, latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi, eləcə də dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi, son zamanlarda isə (18 iyun 2021-ci il) Azərbaycan dilinin orfoepiya normalarının qəbul edilməsi bu çoxşaxəliliyə nümunə olaraq göstərilə bilər. Bu rəsmi sənədlərlə dövlətin kifayət qədər ədəbi dili/dövlət dilini mühafizə etdiyi, inkişafının yol xəritəsini çizdiyi müşahidə edilir.

Dünya təcrübəsində ədəbi dilin qanunauyğunluqları ilə məşğul olan müəyyən qurumlar vardır. Ölkəmizdə dilçilik elmi üzrə araşdırmaların mərkəzi də Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutudur. Məhz bu səbəblə Azərbaycan Prezidenti 29 may 2012-ci ildə "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" Sərəncam verib. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin (Qurumun yaranma tarixi 1923-cü il göstərilsə də, cəmiyyətin rəsmi sənədlərində bu tarix 1920-ci ildir. Cəmiyyət tarixi-etnoqrafik, iqtisadiyyat, təbiət tarixi və türkologiya kimi bölmələrdən ibarət olub) bünövrəsi üzərində inşa edilən bu müəssisənin əsas fəaliyyət istiqamətləri həm də Azərbaycan dilinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, Azərbaycan dilinin müasir tələblərə cavab verən qrammatikasının, müxtəlif tipli lüğətlərin və onların elektron versiyalarının hazırlanmasıdır. Qurumun fəaliyyət istiqamətini işıqlandıran elektron portalında xüsusilə lüğətlərin elektron versiyaları haqqında hər hansı bir məlumat bazası yoxdur. Müasir dövr isə dilin inkişafında və tənzimlənməsində yeni yanaşmalar və çeviklik tələb edir. Bununla birlikdə ölkədə ədəbi dilin tələblərinə cavab verən müxtəlif elektron platformalar mövcuddur. Məsələn, son dövrlərdə Azərbaycan Respublikasının Prezidentinin Yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə hazırlanmış uğurlu bir layihə "Azərbaycan Dilinin Elektron Lüğətlər Korpusu"dur. Ədəbi dilə dair yanaşmalar və tənzimləyici qaydalar ədəbi dilin normalarını təyin edən rəsmi qurumun korpusu daxilində həyata keçirilsə və yaxud bir korpus daxilində toplansa, cəmiyyət üçün daha əlverişli olmazmı? Məsələn, Türkiyədə 1900-cü illərdən başlayan dildə sadələşmə cərəyanı Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti dövləti zamanında dil inqilabı ilə nəticələnmişdi. Ədəbi dilin normalarını tənzimləyən, türk dilinin tədqiqi məsələləri, lüğətlərin hazırlanması işi, elektron dil korpusu bütövlükdə Türk Dil Qurumunun öhdəliyindədir. Qeyd etmək lazımdır ki, Türk Dil Qurumu 1932-ci ildə Mustafa Kamal Atatürkün təlimatına əsasən Türk Dili Tədqiq Cəmiyyəti adıyla qurulmuşdu.

Azərbaycan dilinin müasir səviyyəsi yeni tələblər ortaya qoyur. Nəzərə almaq lazımdır ki, bu dil sadəcə bu ərazidə danışılan və 10 milyonluq xalqın ünsiyyət tələbatını ödəyən bir dil deyildir. Elektron lüğətlər, ədəbi dilin yazı qaydaları, dil materialları dövlət sərhədindən kənarda yaşayan dil istifadəçiləri, eləcə də ölkə daxilində yaşayanlar üçün istifadəyə uyğun və əlçatan olmalıdır. Hər sahənin mobilləşdiyi bir dövrdə 5 ildən bir nəşr edilən və davamlı tənqidə məruz qalan orfoqrafiya lüğəti əldə və ya çantada daşınmır. Üstəlik, bu lüğətin tərtibi və nəşri də kifayət qədər böyük bir büdcə tələb edir. Ölkədəki bir çox eksperimentlər onu deməyə əsas verir ki, hər hansı bir quruma tabe deyil, müstəqil şəkildə öz fəaliyyətini tənzimləyən dil quruculuğuna töhfəsini verə biləcək müstəqil dil müəssisəsinin qurulmasının zamanı yetişib, hətta keçməkdədir. Ədəbi dilin inkişaf mexanizmi ilə birbaşa əlaqədar olan bu qurumun nəzdində milli dil korpusu yaradılmalıdır. Belə bir addım dil siyasətinin reallaşmasına xidmət edəcək, dilin tətbiqində əsaslı dönüş yaradacaq, həm siyasi, həm də mədəni bir hərəkat olacaq.